# Vətən müharibəsində və antiterror əməliyyatında iştirak edən kapitan

Ötən il sentyabrın 20-də Azərbaycan əsgəri dünya hərb tarixinə adını qızıl hərflərlə yazaraq, cəmi 24 saata yaxın davam edən hərbi əməliyyatlardan sonra dövlət suverenliyimizi təmin etdi. Bu şanlı Qələbənin əldə edilməsi üçün neçə-neçə igid oğlumuz şəhid və qazi oldu.




AZƏRTAC xəbər verir ki, belə qazilərdən biri də Qax rayonunun Zəyəm kənd sakini, ehtiyatda olan kapitan Ramil Sıraclıdır. Onunla Qax rayonundakı Şəhidlər xiyabanının qarşısında görüşürük. Deyir ki, bu müqəddəs məkanda uyuyan igidlərə vəfa borcumuz var. Burada Ramilin həm tələbə dostları, həm də döyüş yoldaşları uyuyur.

Ramil Sıraclı peşəkar hərbçi olub. 2016-cı ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirib, leytenant rütbəsi alaraq ordu sıralarına qatılıb. Qəbri başında dayandığı Asəf Ağayev onun hərbi məktəbdən tələbə yoldaşıdır. Deyir ki, Asəfdən təkcə vətənpərvərliyi deyil, həm də düşmənə qarşı döyüşməyi öyrənib. Ramil Vətən müharibəsinin ilk günündən bölük komandiri kimi döyüşlərə qatılıb. Komandanlığın verdiyi tapşırıqlardan biri də növbəti yüksəkliyi 12 hərbçi yoldaşı ilə almaq və oranı qorumaq idi. Ayağından yaralanmasına baxmayaraq, Ramilin bölüyü verilən tapşırığı uğurla icra edir.

"Bizim qrup əsasən kənd Horadiz istiqamətində fəaliyyət göstərirdi. Hakim yüksəklikləri azad etmək tapşırılmışdı. Həmin yüksəklikləri azad etməli və kənd Horadizi nəzarət altında saxlamalı idik. Oktyabrın 4-ü tapşırığın icrasına başladıq. Düşmən çox güclü istehkamlar, maneələr qurmuşdu. Biz bu istehkam və maneələri dəf edərək irəlilədik" deyən Ramil bildirir ki, bu döyüşdə beş əsgər, bir zabit şəhid olub.

Şanlı Qələbəmizdən sonra Ramil Komando birliyində xidmət edib. Digər hərbçi döyüş yoldaşları kimi, o da separatçıların Qarabağ ərazisində təxribatlarının şahidi olur, silah-sursat hazırlığı gördüklərini izləyirdi və bu təxribatlara gec-tez son qoyulacağı günü səbirlə gözləyirdi. O gün sentyabrın 19-da başlandı. Ehtiyatda olan kapitan həmin günün qürurunu, sevincini necə yaşadıqlarını sözlə ifadə etməkdə çətinlik çəkir.

Məzarı başında dayandığı şəhid Fərid Mirzəyevlə 2023-cü ilin antiterror əməliyyatında birgə iştirak etdiklərini bildirən Qarabağ qazisi deyir ki, əvvəlcə Xocalı istiqamətində hərəkətə keçiblər: "Qarşımızda Dağdağan dağı vardı. Hədəf həmin dağı, eləcə də yüksəkliyi ələ keçirmək idi. Fərid qardaşımız da həmin döyüşlərdə şəhid oldu. Allah şəhidlərə rəhmət eləsin! Həmin döyüşdə yaxşı nəticələrimiz oldu, tapşırıq vaxtından əvvəl yerinə yetirildi. Separatçılarda qalan torpaqlarımıza da antiterror əməliyyatından sonra nəzarət tam bərpa olundu".

Antiterror əməliyyatı zamanı bədəninin üç yerindən güllə yarası alaraq ağır yaralanan Ramil uzun müddət müalicələr alıb. Ordudan ayrılmaq istəməsə də, həkimlərin rəyi ilə bu yaxınlarda ehtiyata buraxılıb. Ramil Sıraclı Cəbrayılın, Füzulinin, Xocavəndin azad olunmasına görə, həmçinin "Cəsur döyüşçü", "3-cü dərəcəli qüsursuz xidmətə" görə, "Döyüşdə fərqlənməyə görə" və "Azərbaycan Ordusunun 100 illiyi" medalları ilə təltif olunub.

Azərbaycan. - 2024.- 20 noyabr (№ 255).- S.20.